TƏBRİK EDİRİK!

# Zəhmətkeş və səmimi alim adam

## LEYLİ ƏLİYEVA-75

**Azərbaycan ədəbiyyatının klassikləri Xaqani Şirvani, Nizami Gəncəvi, Məhsəti Gəncəvi, Qazı Bürhanəddin, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif və başqalarının ədəbi irsi, fikir zənginliyi və yüksək sənətkarlığına görə dünya alimlərinin diqqətini həmişə cəlb etmişdir. Qərb və rus şərqşünaslarının klassiklərimizin ədəbi-poetik irsinin öyrənilməsi sahəsində gördükləri işləri alimlərimiz yüksək qiymətləndirmiş, eyni zamanda ideoloji yanaşma bucağından yol verilmiş səhvlərə münasibət bildirmişlər.**



Bu istiqamətdə professor Mikayıl Rəfili, filologiya elmləri doktoru Əkbər Ağayev, İsmixan Rəhimov, Ənvər Rza, Zeydulla Ağayev kimi alimlərin əməyini qeyd etmək lazımdır. Onların yolunu davam etdirən zəhmətkeş tələbələri ədəbiyyatımızın dünyada öyrənilməsi probleminin araşdırılması sahəsində uğurlar qazanmaqdadırlar.

Belə tədqiqatçılardan biri olan filologiya üzrə fəlsəfə doktoru dosent Leyli Əliyeva 50 ildən artıqdır ki, Nizami Gəncəvi adına Ədəbiyyat institutunda çalışır. Azərbaycan Dövlət Dillər Universitetinin ingilis dili fakültəsinin məzunu olan L. Əliyeva Azərbaycan ədəbiyyatı haqqında ingilisdilli tədqiqatçıların araşdırmalarının dəyərləndirilməsi və Azərbaycan dilinə tərcüməsi, eləcə də, ingilis dilindən Azərbaycan dilinə poetik tərcümə ilə məşğuldur. Bu sahədə onun yerinə yetirdiyi işlər ədəbiyyat tarixinin yazılması ilə məşğul olan alimlərə böyük kömək göstərir.

Dosent Leyli Əliyevanın tədqiqat obyekti Avropa şərqşünaslığının tanınmış nümayəndələri Çarlz Riyo, Elyas Con Vilkinson Gibb, Eduard Braun, Reynold Nikolson, Alessio Bombaçi, Sofi Huri və digər tanınmış alimlərin əsərlərini əhatə edir. İngilis dilini yaxşı bilməsi bu sahədə onun işini asanlaşdırır. Leyli Əliyeva uzun müddət Hindistanda Cəvahirləl Nehru Universitetində və Kəlküttədə Cavadpur Universitetində elmi ezamiyyətdə olmuş, bir çox beynəlxalq elmi konfranslarda məruzələr etmiş və məqalələri beynəlxalq elmi jurnallarda dərc olunmuşdur.

Elmi fəaliyyətinin əhəmiyyəti, zəhmətkeşliyi, gənclərlə işləmək bacarığı və səmimiyyətinə görə L. Əliyevaya həmişə müraciətlər olur, gənc elmi kadrlar onun yanına göndərilir. Əlbəttə, o, bu inamı doğrultmuş və doğrultmaqdadır. Aşağıdakı faktlar bunu təsdiq edir. Leyli Əliyeva bu vaxta qədər 16 dissertant və doktorantların elmi rəhbəri olmuşdur. Opponent kimi çıxış etdiyi dissertasiyaların sayı 40-dan artıqdır.

Beləliklə, onun elmi fəaliyyəti, işlədiyi Ədəbiyyat İnstitutu ilə yanaşı, Azərbaycan Dövlət Dillər Universiteti, Slavyan Universiteti, Bakı İslam Universitetini və Sumqayıt Dövlət Universitetini də əhatə edir.

Ədəbiyyatşünaslıq sahəsindəki səmərəli elmi fəaliyyətinə görə Leyli Əliyeva AMEA Rəyasət Heyətinin Fəxri Fərmanı, "Avropa Nəşr Mətbuat Evi"nin "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" diplomu və Qızıl medalı ilə təltif edilmişdir.

Elmi təfəkkürə və poetik sənətkarlıq qabiliyyətinə malik olan Leyli Əliyeva düşündürücü lirik şeirlərin müəllifidir. Onun şeirlərində xalq bayatılarının ruhu, elmi-ədəbi əsərlərdə şərh olunan fikirlərin poetik təqdimi öz əksini tapmışdır.

Bu yazının başlığında "alim adam" ifadəsini işlətməkdə, məqsədimiz Leyli xanımın şəxsində müdrik atalar sözündə deyildiyi kimi alimlik və "çətin olan" insanlıq keyfiyyətlərinin birləşdiyini, hər iki keyfiyyətin bir-birini tamamladığını və başqa alimlər üçün nümunə olduğunu diqqətə çatdırmaqdır. Onun bu keyfiyyətlərə malik olması ailə tərbiyəsinin nəticəsidir. Leyli Əliyevanın atası Əliheydər Məmməd oğlu Əliyev 45 il Ucar rayonunda maarif sistemində işləmişdir. Qüsursuz işlədiyinə görə "Qırmızı əmək Bayrağı" ordeni, "Şərəf Nişanı" ordeni və başqa medallarla təltif edilmişdir. Anası Badamxanım Hacıağa qızı Əliyeva on iki övlad böyütmüş və "Qəhrəman ana" adına layiq görülərək "Qızıl Ulduz" medalı ilə təltif olunmuşdur.

Akademik İsa Həbibbəylinin sədrliyi ilə keçən Ədəbiyyat İnstitutunun Elmi Şurasında ömrünün 75-ci baharını yaşayan Leyli Əliyeva kollektiv adından təbrik edilmiş, ona cansağlığı, işlərində uğurlar arzulamaqla, həyatında həmişə xoş günlərin ona qismət olması bildirilmişdir.

**İmamverdi HƏMİDOV**
**filologiya elmləri doktoru, professor**